# Azərbaycan Hərbi Dəniz Qüvvələrinin imkan və qabiliyyətinin inkişafı üzrə konfrans keçirilib

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) imkan və qabiliyyətinin inkişafı üzrə konfrans keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, konfransda əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla anılıb.

Birinci dərəcəli kapitan Teymur Mürşüdov konfrans iştirakçılarına Azərbaycan Ordusunun digər bölmələrində olduğu kimi, HDQ-nin də Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışıb. Bildirilib ki, aparılan islahatlar çərçivəsində müasir tələblərə cavab verən ştat-strukturun qurulması, hərbi qulluqçuların peşəkarlığının daha da artırılması məqsədilə müxtəlif təlim və kursların keçirilməsi nəzərdə tutulub.

T.Mürşüdov vurğulayıb ki, konfransın keçirilməsində əsas məqsəd HDQ-nin modernləşdirilməsi, eləcə də yenidən qurulması istiqamətində işlərin daha səmərəli təşkil olunmasıdır.

Qeyd edilib ki, konfransda Xəzər dənizinin hüquqi statusu və regiona təsir edən konfliktlər, HDQ-nin şəxsi heyətinin xidməti, əməliyyat və döyüş hazırlığının təşkili və digər aktual mövzular üzrə müzakirələrin aparılması planlaşdırılır.

Sonda "Hərbi Dəniz Qüvvələrinin əməliyyat fəaliyyəti" üzrə aktual olan bir sıra mövzular haqqında brifinqlər təqdim edilib, fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.6.